

# Tarix yazan LİDER

*İbrahim Babayev*

Azərbaycan xalqının müstəqil dövlət quruculuğu tarixində qızıl hərflərlə yazılmış müasir dövr zəfər salnaməsi onu yazan liderlərinin adı ilə sıx bağlıdır. Məhz ötən əsrin 90-cı illərindən başlayan müstəqil Azərbaycan dövlətçiliyinin formalaşması və möhkəmləndirilməsində öz imzasını qoymuş Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyası və ümummilli lidermizin layiqli varisi və davamçısı Prezident İlham Əliyevin yorulmaz siyasi fəaliyyəti nəticəsində xalqımız qısa zaman içərisində güclü dövlət quraraq dünyanın siyasi xəritəsində öz daimi yerini tuta bildi.

Ölkələrin müstəqil dövlət yaratmaq tarixi göstərir ki, ürəyində bağımsızlıq arzuları coşub-daşan hər bir xalq məhz mübarizə yolu ilə öz liderinin hakimiyyəti altında dövlət qurmaq, öz doğma dilində danışmaq və öz vətənində azad yaşaya biləcəyinə inanmaqla sonunda arzusuna çatmışdır. Azərbaycan xalqı da o cür xoşbəxt xalqlardandır ki, onun taleyində belə şanlı mübarizələr və bu mübarizələrin dahi liderləri vardır. Bu gün hər sahədə qalib ölkə titulunu qazanıb, bütün Türk dünyasını qürurlandıran Müzəffər Ali Baş Komandan İlham Əliyev də zəmanəsinin belə liderlərindəndir. Hələ 2003-cü ildə xalqımız üçün tarixi taleyüklü missiya ona həvalə olunduqda "Əgər siz mənə bu inamı, etimadı göstərsəniz, mən Heydər Əliyev siyasətinə sadiq olacağam, bütün istiqamətlər üzrə onun yolu ilə gedəcəyəm" - deyən ölkə başçısı illər sonra "Şadam ki, sözümə sadiq oldum, sözümü tutdum. Bu gün Azərbaycanın sürətli və uğurlu inkişafı, beynəlxalq müstəvidə böyük hörmətə malik olması, ölkə daxilində sosial, iqtisadi, digər problemlərin həlli, böyük layihələrin həyata keçirilməsi, əlbəttə ki, Heydər Əliyev yolunun davamıdır"- sözləri ilə tarix qarşısında nə qədər haqlı olduğunu bir daha sübut edə bildi. Vətən sevgisi, dərin intellekti və yorulmaq bilməyən hərtərəfli fəaliyyəti ilə hər bir azərbaycanlının Prezidenti olmağı bacaran İlham Əliyev ata yoluna və Heydər Əliyev dövlətçilik konsepsiyasına sadiq qalaraq sivil, strateji və milli maraqlarımıza tam cavab verən siyasəti ilə dövlətimizi daha da inkişaf etdirdi. Bir vaxtlar "Mən ona özüm qədər inanıram" deyən Ümummilli Liderin Şuşasız Qarabağ, Qarabağsız ümumiyyətlə Azərbaycan ola bilməz vəsiyyətini yerinə yetirdiyi üçün Prezidentmiz indi dünyanın ən xoşbəxt dövlət başçısıdır.

Dövlət başçısı seçildiyi ilk gündən xalqının dəstəyinə arxalanan cənab İlham Əliyev hərtərəfli fəaliyyəti ilə daxili və xarici siyasətdə böyük uğurlar qazanaqar bugünkü böyük Zəfərimizin təməlini qoymuşdur. Ölkə iqtisadiyyatında qeyri-neft sektorunun və regionların sosial-iqtisadi inkişafını əsas götürməklə bölgələrdə müasir infrastrukturun yaradılmasını təmin edən dövlət başçısı bu istiqamətdə 2004, 2009, 2014, və 2018-ci illərdə qəbul olunan regional inkişaf proqramlarını həyata keçirməklə, əslində, milli inkişafın əsaslarını gücləndirmişdir.

Azərbaycan əlverişli coğrafi mövqedə yerləşən güclu enerji resurslarına malik ölkədir. İki əsrə yaxın bir müddətdə sudan ucuz qiymətə talanıb aparılmış Azərbaycanın neft ehtiyatları müstəqillik illərində xalqımızın milli sərvətlərinə çevrildikcə ölkəmiz daha da güclənir, erməni işğalından qurtulmaq günü sürətlə yaxınlaşırdı. Ölkəmiz üçün çox mühüm əhəmiyyət kəsb edən iqtisadiyyatın şaxələndirməsı işlərinin genişləndirilməsi, müasir innovativ texnologiyalara əsaslanan minlərlə yeni müəssisənin fəaliyyətə başlaması ilə Azərbaycan cəmiyyəti çox qısa müddətdə dünya miqyasında yüksək həyat səviyyəsi ilə seçilməyə başladı. Dövlət başçısının məharəti sayəsində özünün müdafiə sənayesini də qurmağı bacaran Azərbaycan bununla ona qarşı tətbiq olunan ikili standartlara qarşı ən yaxşı dəmir qübbə yaratdı. Beləcə, həm iqtisadiyyatın inkişafında, həm diplomatik sahədə, həm də ordu quruculuğunda müstəqil olmağı bacaran Azərbaycan üçün bütün sahələrdəki uğurlar bir-bir reallığa çevrilirdi. Ölkə başçısının da qeyd etdiyi kimi, bu gün Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində ən etibarlı tərəfdaş olan Azərbaycan məhz bu uğurları sayəsində regionun əvəzolunmaz liderinə çevrilmiş, aparılan fəal diplomatiya ilə ölkəmiz Cənubi Qafqaz və Xəzər bölgəsində toqquşan maraqları bir araya gətirərək müxtəlif təşkilatlar, eləcə də ayrı-ayrı dövlətlərlə münasibətlərdə bərabərhüquqlu, etibarlı tərəfdaş imici qazanmışdır.

Hazırda Azərbaycan beynəlxalq aləmdə müstəqil siyasəti, mövqeyi ilə seçilən dövlət kimi tanınır və ölkənin beynəlxalq nüfuzu getdikcə artmaqdadır. 2011-ci ildə Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilib, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərakatına 2022-ci ilə qədər sədrlik edəcək. Cənab İlham Əliyevin Prezidentliyi dövründə ölkəmizdə ictimai-siyasi sahədə və sosial-mədəni xidmətlər sektorunda ciddi institusional islahatlar aparılıb. Nəticədə hazırda ölkəmizdə 55 siyasi partiya, 3 mindən çox qeyri-hökumət təşkilatı, 5 mindən çox kütləvi informasiya vasitəsi sərbəst fəaliyyət göstərir. Azərbaycanda söz və məlumat azadlığının təmin olunması, demokratik, plüralist mətbuatın formalaşması dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir.

Qarşıdakı dövrdə ölkəmizi Prezident İlham Əliyevin rəhbərliyi altında daha böyük işlər gözləməkdədir. İndi bütün dünyanın gözü-qulağı işğaldan azad olunmuş Qarabağın yenidən inşasında, Türk dünyasının yeni can damarı olacaq Zəngəzur dəhlizinin reallığa çevrilməsində, bölgədə davamlı sülhün bərqərar olunması üçün revanşist ünsürlərin əl-qolunu bir dəfəlik bağlayacaq tədbirlərin həyata keçirilməsindədir. Bütün bunlara isə Azərbaycan öz tarix yazan Lideri ilə nail olacaq.